Azərbaycan Respublikası adından

**QƏRARDAD**

Bakı şəhəri İş № 10(102)-173/2022 20.09.2022

**ALİ MƏHKƏMƏ**

**Azərbaycan Respublikası adından**
**Azərbaycan Respublikası Ali Məhkəməsi**
**Mülki kollegiyasının**

**Rusiya Federasiyasının Leninqrad vilayətinin Vıborq şəhər Məhkəməsinin 14 iyul 2021-ci il tarixli qərarının Azərbaycan Respublikası ərazisində tanınmasına dair iş üzrə**

**Q Ə R A R D A D İ**

**iş № 10(102)-173/2022**

Açar sözlər: xarici məhkəmələrin qərarlarının tanınması

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Şəfiyev İspəndiyar Əsəd oğlu (məruzəçi), Həsənov Vüqar Təvəkgül oğlu və Əhmədov Əhməd Abbas oğlundan ibarət tərkibdə,

Rusiya Federasiyasının Leninqrad vilayətinin Vıborq şəhər Məhkəməsinin 14 iyul

2021-ci il tarixli qərarının Azərbaycan Respublikası ərazisində tanınmasına dair Kassator tərəfindən verilmiş ərizəyə 20 sentyabr 2022-ci il tarixdə Ali Məhkəmənin inzibati binasında yazılı icraat qaydasında baxaraq,

**MÜƏYYƏN ETDİ:**

1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Beynəlxalq Əməkdaşlıq İdarəsinin 15 avqust 2022-ci il tarixli xx/xx-8221 nömrəli məktubu ilə, Rusiya Federasiyasının Leninqrad vilayətinin Vıborq şəhər Məhkəməsinin 14 iyul 2021-ci il tarixli qərarının Azərbaycan Respublikasının ərazisində tanınması barədə Kassator tərəfindən verilmiş ərizə və ona əlavə olunmuş sənədlər aidiyyəti üzrə baxılması üçün Azərbaycan Respublikasının Ali Məhkəməsinə göndərilmişdir.

2. Vəsatətə əlavə olunmuş Rusiya Federasiyasının Leninqrad vilayətinin Vıborq şəhər Məhkəməsinin 14 iyul 2021-ci il tarixli qərarının surətindən görünür ki, X1 15 dekabr 2013-cü il tarixdə doğulmuş X2 və 27 iyun 2016-cı il tarixdə doğulmuş X3 atasının olmadığı müəyyən edilmiş, X2 və X3 doğumu barədə qeydlərindən ata X5 barədə qeydin çıxarılması qət edilmişdir.

3. Məruzəçini dinləyərək, ərizənin dəlillərini və əlavə olunmuş sənədləri araşdıraraq məhkəmə kollegiyası hesab edir ki, ərizə əsaslı olduğu üçün təmin edilməlidir.

4. Məhkəmə kollegiyası iş materiallarına əsasən müəyyən etdi ki, tanınması xahiş olunan qərar 24 avqust 2021-ci il tarixdə qüvvəyə minmişdir.

5. Tanınmaya dair məhkəməyə etiraz daxil olmamışdır.

6. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 459.0.1-ci maddəsinə əsasən, məhkəmənin qətnamə çıxardığı dövlətin vətəndaşlarının şəxsi statusuna toxunan qətnamələr Azərbaycan Respublikasında tanınır.

7. Həmin Məcəllənin 462-ci maddəsinə əsasən, xarici dövlətlərin və arbitrajlarının qətnamələri Azərbaycan Respublikası qanunvericiliyinə zidd deyildirsə və qarşılıqlı təminatlandırılmışsa Azərbaycan Respublikasında tanına və icra edilə bilər.

8. Qeyd olunan qətnamənin Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 465-ci maddəsində qeyd edilən tanınmadan imtina edilməsi halları aşkar edilməmişdir.

9. Məhkəmə kollegiyası hesab edir ki, Rusiya Federasiyasının Leninqrad vilayətinin Vıborq şəhər Məhkəməsinin 14 iyul 2021-ci il tarixli qərarı Azərbaycan Respublikası qanunvericiliyinə və hüquq qaydasına zidd olmadığı üçün həmin qərarın tanınması barədə ərizə təmin edilməlidir.

10. Qeyd olunanlara əsasən və Azərbaycan Respublikası MPM-nin 459-473-cü maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

**QƏRARA ALDİ:**

Kassator ərizəsi təmin edilsin.

Kassator X4 qarşı atalığın mübahisələndirilməsi və doğum haqqında şəhadətnamələrdən qeydin çıxarılması tələbinə dair Rusiya Federasiyasının Leninqrad vilayətinin Vıborq şəhər Məhkəməsinin 14 iyul 2021-ci il tarixli qərarı Azərbaycan Respublikasında tanınsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

**Sədrlik edən: İspəndiyar Şəfiyev**

**Hakimlər Vüqar Həsənov**

**Əhməd Əhmədov**